Azerbaijan Journal of Botany, 2024, 2(2): 29-35 https://doi.org/10.30546/ajb.2024.2.032

# *CİRSİUM* MİLL. CİNSİNİN QARABAĞDA YAYILAN NÖVLƏRİ

Ü.S. Alışanlı, A.Y.Hüseynova, P.X.Qaraxani
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutu, A.Abbaszadə küç., giriş 99, AZ 1004, Bakı, Azərbaycan
E-mail: a.huseynova@mail.ru

Məqalədə *Cirsium* cinsinin Qarabağda yayılan növləri araşdırılmış, arealları dəqiqləşdirilmiş, nomenklatur dəyişikliklər qeyd edilmiş, növlərin CİS xəritəsi tərtib edilmişdir. *Cirsium* cinsi tərəfimizdən Qarabağ florasının yeni nəşri üçün işlənilmişdir. Ədəbiyyat materialları və son illərdə təşkil edilən ekspedisiyalar zamanı toplanılan herbari və monitorinq məlumatları əsasında Qarabağda bu cinsin 9 növ və 1 yarımnövünün yayılması müəyyən edilmişdir: *C.vulgare, C.kosmelii, C.echinus, C. canum, C. elodes, C. subinerme, C. rhizocephalum, C.obvallatum, C. arvense, C. arvense* var. *vestitum*. Məqalədə cinsin və növlərin təsviri, nomenklatur tipləri, bazionimi, sinonimləri, Qarabağda yayılması və coğrafi tipi haqqında məlumat verilir.

**Açar sözlər:** Qarabağ, *Cirsium*, *Asteraceae*, cins, taksonomiya

## GİRİŞ

Müasir dövrdə biomüxtəlifliyin qorunması və problemlərinin araşdırılmasına aktual və fundamental tədqiqatların prioritet istiqaməti kimi baxılır. Bu problemlər polimorf taksonların hərtərəfli təhlilini və çox mühüm əhəmiyyət kəsb edən floristik zənginliyin öyrənilməsini özündə ehtiva edir. Dünyada çox nadir və təkrar olunmaz iqlimə, bitki örtüyünə malik olan Qarabağ Kiçik Qafqaz təbii vilayətinin ən xarakterik hissəsi kimi Azərbaycanda ən zəngin biomüxtəlifliyə malikdir. Yeni növlərin yaranmasına görə Qarabağ ərazisi təkcə Azərbaycanda deyil, bütövlükdə Qafqaz regionunda birincidir. Qarabağda Asterkimilər (*Asteraceae* Giseke. və ya *Compositae*) fəsiləsinin nümayəndələri də geniş yayılmışdır. İkiləpəli bitkilərin ən böyük və təkamül nəticəsində inkişaf etmiş fəsilələrindən biri kimi bütün dünyada 1400-dən çox cinsi, 24000-ə qədər növü əhatə edir. Müasir dövrümüzə qədər polimorf və geniş coğrafi areala malik taksonların, o cümlədən fəsiləyə aid *Cirsium* Mill. – Eşşək qanqalı cinsinin sərhədləri hələ də tam dəqiqləşdirilməmiş, mübahisəli olaraq qalmaqdadır. A.L.Xaradze Azərbaycan florasında *Cirsium* cinsinə aid 32 növün yayıldığını müəyyən etmiş, lakin 50 ildən artıq bir dövr ərzində cins təftiş edilməmiş, cinsin sistematika, taksonomiya, bioekoloji xüsusiyyətləri, fitosenoloji uyğunlaşmaları və dəqiq arealları öyrənilməmişdir. Bu məqsədlə cinsin Qarabağda yayılan növləri araşdırılmışdır.

## MATERİAL VƏ METODİKA

Morfoloji-sistematik tədqiqatlar “Определитель растений Кавказа” [Гроссгейм, 1949], “Флора Азерб.” [Charadze, 1961], “Флора СССР” [1963], “Flora Turkey” [Wagenitz, 1975], “Flora Iranica” [Rechinger, 1980], “Flowering Plants” [Jeffrey, 2007], “Конспект флоры Кавказа” [Menitsky, 2008], “Azərbaycanın bitki aləmi” [Askerov, 2016] əsərlərinin əsasında aparılmış, müxtəlif illərdə toplanmış herbari nüsxələrinin tənqidi təftişi nəticəsində növlərin taksonomiyası və nomenklaturası dəqiqləşdirilmişdir. Ədəbiyyat məlumatlarının təhlili və Herbari fondunun təftişi nəticəsində *Cirsium* cinsinə aid 9 növ, 1 yarımnövün Qarabağda yayılması məlum olmuşdur. Beynəlxalq bazalara [https://powo.science.kew.org/; https://www.gbif.org/; WFO] əsasən nomenklatur dəyişikliklər qeydə alınmışdır. Tədqiq edilən ərazilərə müəyyən marşrutlar üzrə ekspedisiyalar həyata keçirilmiş, rast gəlinən növlərin CPS məlumatlarına əsasən cinsə aid olan növlərin arealları və ərazinin canlı xəritədəki lokaliteti əsasında CİS xəritələri (Şək. 1, 2) hazırlanmışdır [ArcCIS Pro 3.3].

Xəritələrin hazırlanması üçün NextGIS data bazasınından [https://data.nextgis.com/]




Şəkil 1. Azərbaycan xəritəsində Qarabağ




Şəkil 2. Əttarlarla keçirilən etnobotaniki sorğular

Azərbaycanın müvafiq rayonlarının layları əldə edilmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, hal-hazırda Coğrafi İnformasiya Sistemlərinin funksiyalarını həyata keçirən çoxsaylı proqram məhsulları vardır ki, onların içində ən müasiri və geniş yayılmış olanı ArcCİS Pro proqramıdır. ArcCİS Pro - lizenziyalı funksional, stolüstü geoinformasiya sistemidir. Proqram geniş imkanlara sahib olub, çoxsaylı vektor, raster formatları və məlumatlar bazasını dəstəkləyir [Mitchell., 2020; Esri GIS Arc review].

## NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

*Cirsium* Mill. 1754, Gard. Diet. Abridg. ed. 4.: [s.p.]; Харадзе, 1961, Фл. Азерб. 8:390; həmin müəl., 1963, Фл. СССР, 28: 51; Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):261. – Eşşək qanqalı.

Bir, iki və çoxillik, gövdə yarpaqları tikanlı otlardır. Çiçəkləri al qırmızı, qırmızımtıl, bəzən sarı, bütün çiçəklər ikicinsli, boruşəkilli, bəzən bircinsli olur, bu zaman bitki ikievli olur. Çiçək yatağı qılcıqlarla örtülmüşdür. Sarğı kirəmitvari, xarici və orta sarğı yarpaqcıqları bütöv-kənarlı, bəzən kirpikcikli, sivriuclu; daxildəkilər ensiz, təpə hissədən pərdəlidir. Toxumca hər iki tərəfdən sıxılmış, hamar, təpə hissədən çəpinə kəsilmişdir; kəkil tökülən, çoxsıralı, uzun lələkvari tükcüklü, halqa şəklində birləşmişdir. Dünyada 200 növü, Azərbaycanda 32 növü yayılmışdır.

***Lectotypus*: *C. heterophyllum* (L.) Hill**

*C. vulgare* (Savi) Ten. 1835, Fl. Nap. 5:209; Харадзе, 1961, Фл. Азерб. 8:394; həmin müəl. 1963, Фл. СССР, 28:135; Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):264. – *Carduus vulgaris* Savi, 1798, in Fl. Pis. 2: 241. – Adi qanqal

İkiillik, 50-150 sm hündürlüyündə bitkidir. Gövdə yuxarıdan budaqlanan, nazik hörümçəktorunabənzər tükcüklü, kürəkvari qanadlıdır. Yarpaqları üst tərəfdən tikanlı, alt tərəf-dən hörümçəktorunabənzər keçətüklü, uzunsov xətvari, lələkvari bölünmüş və üçkünc lansetşə-killidir. Səbət yumurtaşəkilli, təkdir. Sarğı nadir halda hörümçəktorunabənzər tükcüklü; sarğı yarpaqcıqları bizvari lansetşəkilli, yaşıl, uc hissədən azca əyilmiş sarımtıl tikanlıdır. Çiçəkləri çəhrayı və ya bənövşəyidir. Toxumca sarımtıl və ya şəffaf qəhvəyi, uzununa qara zolaqlı; kəkil ağımtıldır. KQ mərk., KQ cən. hissəsində düzənlikdən subalp qurşağına kimi meşə talalarında, pambıq talalarında, yol kənarlarında, yaşayış məntəqələrin ətrafında ruderal bitki kimi yayılır. Dərman və yem bitkisidir. Ç. VI, M. IX. Mezofit, işıqsevəndir.

İtaliyadan təsvir edilmişdir.

***Typus:*** Италия, окр. Пизы

Coğrafi tipi: Qafqaz

*C.kosmelii* (Adams) Fisch. ex Hohen. 1833, Bull. Soc. Nat. Moscou, 6: 251; Харадзе, 1961, Фл. Азерб. 8:400; Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):266. – *Carduus kosmelii* Adams, 1805, in F. Weber u. D. Mohr, Beitr. Naturk. 1:66. – Kosmeli qanqalı

Çoxillik, 15-40 (60) sm hündürlüyündə bitkidir. Gövdə düz, yuxarıdan əyri-üyrü budaqlanan, sıx yarpaqlı, uzun, dağınıq hörümçəktorunabənzər tükcüklüdür. Yarpaqları üst tərəfdən sıx tikanlı, alt tərəfdən bozumtul keçətüklü, uzunsov və ya uzunsov lansetvari bölünmüş, uc seqmentləri bərk tikanlıdır. Aşağı gövdə yarpaqları saplaqlı, qalanları oturaqdır. Səbət gövdənin yuxarısında yarpaqların əhatəsində təkdir. Sarğı hörümçəktorunabənzər tükcüklü; sarğı yarpaqcıqları yumurtavari lansetşəkilli, daxildəkilər xətvari lansetşəkilli, sivri uclu, əyilmiş nazik tikanlıdır. Çiçəkləri sarıdır. Toxumca bozumtul şəffaf qəhvəyi; kəkil sarımtıl, çirkli ağ, daxili qatın uc hissəsi lələkvaridir. KQ mərk. hissəsində orta və subalp qurşaqlarında, yol kənarlarında, quru yamaclarda, bəzən sahələrdə alaq bitkisi kimi yayılır. Dərman və yem bitkisidir. Ç. VII, M. IX. Mezofit, quru şəraitə davamlı, işıqsevəndir.

Mərkəzi Qafqazdan təsvir edilmişdir.

***Typus:*** «In Iberia circa Duschet et Tiflis» (?).

**Coğrafi tipi:** Qafqaz

*C. echinus* (M.Bieb.) Hand.-Mazz. 1909, Ann. Naturh. Mus. (Wien), 23: 197; Харадзе, 1961, Фл. Азерб. 8:406. Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):270. – *Carlina echinus* M.Bieb. 1808, in Fl. Taur.-Caucas. 2: 283. – İynəli qanqal

İkiillik, 45-60 sm hündürlüyündə bitkidir. Gövdə budaqlanan, sıx yarpaqlı, uzun, hörümçəktorunabənzər tükcüklüdür. Kökətrafı və aşağı gövdə yarpaqları uzunsov lansetvari, üst tərəfdən sıx tikanlı, alt tərəfdən bozumtul keçətüklü, uzunsov və ya uzunsov lansetvari bölünmüş, uc seqmentləri 4-8 mm uzunluğunda bərk tikanlıdır. Aşağı gövdə yarpaqları saplaqlı, qalanları oturaqdır. Səbət gövdənin yuxarısında yarpaqların əhatəsində təkdir. Sarğı hörümçəktorunabənzər tükcüklü; sarğı yarpaqcıqları yumurtavari lansetşəkilli, daxildəkilər xətvari lansetşəkilli, sivri uclu, əyilmiş nazik tikanlıdır. Çiçəkləri sarıdır. Toxumca bozumtul şəffaf qəhvəyi; kəkil sarımtıl, çirkli ağ, daxili qatın uc hissəsi ləyəkvaridir. KQ mərk., KQ cən. hissəsində düzənlikdən subalp qurşağına kimi dağ çəmənlərində, otlaqlarda, çay sahilboyu, yol kənarlarında, əkinlərdə alaq bitkisi kimi bitir. Dərman bitkisidir. Ç. VII, M. IX. Mezofit, işıqsevəndir.

Şərqi Qafqazdan təsvir edilmişdir. («hinc inde obvia in lapidosis siccis, imprimis ad rivorum margines in tractu montium inter Kubam et Schemachiam»).

***Typus:*** [Caucasus] inter Kubam et Schamamchian. Lectotypus: (Меницкий, 1996: 100; Харадзе, 1969, in herb. LE): «Ex montibus Schir-wanicis, 1796 [Bieberstein]» (LE!).

**Coğrafi tipi:** İran-Turan

*C. canum* (L.) All., 1785, Fl. Pedem. 1: 151; Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):272. – *Carduus canus* L. 1767, in Mant. Pl. 1: 105. – *Cirsium biebersteinii* Charadze, 1961, Зам. сист. геогр. раст. (Тбилиси), 23: 112, həmin müəll. 1961, Фл. Азерб. 8:409. – Boz qanqal

Çoxillik, 30-150 sm hündürlüyündə bitkidir. Kökümsov uzunsov kök yumruları birgə dəstə şəklindədir. Gövdə hörümçəktorunabənzər tükcüklü, yuxarı hissədən demək olar tamamilə yarpaqsız və budaqsızdır. Kökətrafı gövdə yarpaqları iri, saplaqlı, qalanları oturaq, gövdə yarpaqları iri, bütöv, elliptik, kənarları dişcikli, sıx tikanlı kirpikciklidir. Səbət 3,5 sm enindədir. Sarğı dağınıq kilkəşəkilli tükcüklü; sarğı yarpaqcıqları uzunsov yumurtaşəkillidən xətvari lansetşəkilliyədək, yuxarı hissədən tünd qırmızı, uc hissəsi kiçik qatlanmış tikanlıdır. Çiçəkləri al qırmızıdır. Toxumca 3-4 mm uzunluğunda; kəkil çirkli ağdır. KQ cən. hissəsində (Zəngilan rayonu) çəmənlərdə bitir. Dərman və yem bitkisidir. Ç. VII, M. VIII. Mezofit, işıqsevəndir.

Avstriyadan təsvir edilmişdir.

***Typus:*** (“in Austria”)

Coğrafi tipi: Avropa-Sibir

*C. elodes* M.Bieb., 1819, Fl. Taur.-Cauc. 3: 555; Харадзе, 1961, Фл. Азерб. 8:409; Меницкий, 2008, Консп. Фл. Кавк., 3 (1): 273. – Bataqlıq qanqalı.

Çoxillik, 25-100 sm hündürlüyündə bitkidir. Kökümsovu uzunsov kök yumruları birgə yaxşı inkişaf etmişdir. Gövdə düz və ya əyilən, yuxarı hissədən budaqlanan, aşağı hissədən dağınıq qıvrım tükcüklü, kənarları tikanlı kirpikcikli qanadlıdır. Yarpaqları qalın dərili, uzunsov lansetvaridən xətvari lansetşəkilliyədək, kənarları tikanlı kirpikciklidir. Səbət 6-12 mm enində, budağın sonunda tək və ya 2-3 ədəddir. Sarğı yarpaqcıqları yaşılımtıl, üzəri qırmızı ləkəli, kiçik, uc hissədən qatlanmış tikanlı, kənarları zəif kilkəşəkilli tükcüklüdür. Çiçəkləri çəhrayıdır. Toxumca 3 mm uzunluğunda; kəkil çirkli ağdır. KQ cən. hissəsində əsasən düzənlikdə bozqırlı və yarımsəhra ərazilərdə yayılır. Dərman bitkisidir. Ç.VII-VIII, M. VIII-IX. Kseromezofit, işıqsevəndir.

Qafqazdan təsvir edilmişdir («in subhumidis ad Caucasum obvius»).

***Lectotypus:*** (Харадзе, 1961: 410, 1963: 191, «тип», 1969, in herb. LE): «Cnicus palustris varietas... Circa opp. Schamachy lectus, 1796 [Bieberstein]» (LE!).

**Coğrafi tipi:** İran-Turan

*C. subinerme* Fisch. et C. A. Mey. 1848, in Cirs. Ruthen.: 15; Харадзе, 1961, Фл. Азерб. 8:410; Меницкий, 2008, Консп. Фл. Кавк., 3 (1): 273. – Zəiftikan qanqal.

Çoxillik, 100 sm hündürlüyündə bitkidir. Kökümsov qaytanşəkilli köklərlə əhatələnir. Gövdə əyilən, sadə və ya yuxarıdan budaqlanan, boz keçətüklüdür. Gövdə yarpaqları üst tərəfdən yaşıl, nazik hörümçəktorunabənzər tükcüklü, alt tərəfdən bozumtul keçətüklü, kənarları dişcikli və nazik tikancıqlı, forma-

ları uzunsov lansetvaridən yumurtaşəkilliyə qədər dəyişir, ucları uzun sivri ucludur. Səbət budağın sonunda qalxanvari süpürgə çiçək qrupunda toplaşmışdır. Sarğı yarpaqcıqları çılpaq, yumurtavari uzunsov, tünd qırmızı zolaqlı, daxili yarpaqcıqlar xətvari lansetşəkilli, uc hissəsi pərdəvari sivriucludur. Çiçəkləri çəhrayıdır. Toxumca 3 mm uzunluğunda; kəkil çirkli ağdır. KQ mərk. hissəsində subalp və alp qurşaqlarında şibyəli sahələrdə, meşə kənarlarında yayılır. Dərman və yem bitkisidir. Ç. VII-VIII, M. VIII-IX. Mezofit, işıqsevəndir.

Şərqi Qafqazdan təsvir olunmuşdur.

***Typus:*** «Prope Dilischan, districtus Alexandropol. in locis humidiusculis ad margines sylvarum, VIII 1845, leg. Frick» (LE!).?

**Coğrafi tipi:** İran-Turan

*C. rhizocephalum* C.A.Mey. 1831, Verz. Pfl. Cauc. Casp. Meer.: 70.; Харадзе, 1961, Фл. Азерб. 8:411; Меницкий, 2008, Консп. Фл. Кавк., 3 (1): 275. – Kökbaşcıqlı qanqal

Çoxillik, 5-40 sm hündürlüyündə bitkidir. Kökü əsas, kökətrafı rozet yarpaqları yaxşı inkişaf etmişdir. Gövdə sadə, şırımlı, hörümçəktoruna bənzər tükcüklüdür. Kökətrafı yarpaqlar uzun saplaqlı, qalanları oturaq, elliptik, lansetvari və ya xətvari lansetşəkilli, ləłəkvari kürəkşəkilli və ya bölümlü, hər iki tərəfdən çılpaq, kənarları tikanlı kirpikciklidir. Səbət 2-5 sm enində, tək və ya 3-4 ədəddir. Sarğı yarpaqcıqları xətvari lansetşəkilli, çılpaq, uc hissəsi qısa, qatlanmış tikanlıdır. Çiçəkləri ağımtıl və ya çəhrayıdır. Toxumca bozumtul; kəkil çirkli ağ, çiçəyə bərabərdir. KQ mərk. hissəsində subalp və alp qurşaqlarında çəmənlərdə, nadir halda meşədən sonra çəmənlərdə yayılır. Dərman bitkisidir. Ç. VII-VIII, M. VIII-IX. Mezofit, işıqsevən.

Mərkəzi və Şərqi Qafqazdan yığılan herbarilər əsasında təsvir edilmişdir. («in alpibus caucasicus Kasbek, Tufandagh et Schachdagh [alt. 1200-1400 hexap.])».

***Lectotypus***: (Меницкий, 1996: 103; Харадзе, 1961: 411): «In pratis alpinis versus montes Schachdagh et Tufandagh, 31 VII 1830, № 169 [C. A. Meyer)» (LE!).

**Coğrafi tipi**: İran-Turan

*C.obvallatum* (Bieb.) Fisch. 1812, Cat. Jard. Pl. Gorenki: 35; Харадзе, 1961, Фл. Азерб. 8:412; Меницкий, 2008, Консп. Фл. Кавк., 3 (1): 274. – *Cnicus obvallatus* Bieb. 1808, Fl. Taur.-Cauc. 2: 279. – Bükülmüş qanqal

Çoxillik, 1,5 m hündürlüyündə bitkidir. Gövdə yuxarı hissədən budaqlanan, dağınıq hörümçəktorunabənzər tükcüklüdür. Yarpaqları uzunsov yumurtaşəkilli və ya yumurtavari lansetşəkilli, ləłəkvari bölümlü və ya uzunsov üçkünc, üst tərəfdən çılpaq, alt tərəfdən hörümçəktorunabənzər tükcüklüdür. Gövdə yarpaqları oturaq, gövdəni yarımqucaqlayandır. Səbət 2-2,5 sm enində, tək və ya 2-3 ədəddir. Sarğı yarpaqcıqları çılpaq, yaşılımtıl, qatlanmış tikanlıdır. Çiçəkləri ağımtıl və ya çirkli çəhrayıdır. Toxumca sarımtıl rəngdə, qəhvəyi zolaqlı; kəkil ağımtıldır. Qarabağın bütün dağlıq rayonlarında əsasən subalp qurşağında və alp qurşağının aşağı sərhədində çəmənlərdə (xüsusi ilə hündürotlu çəmənlərdə), yay otlaqlarda, dağ dərələrində bitir. Dərman və balverən bitkidir. Ç. VII, M.IX. Mezofit, işıqsevəndir.

Mərkəzi Qafqazdan təsvir edilmişdir. («in herbidis subalpinis Caucasi; circa acidu-lam Narzana; versus cacumen montis Beschtau et in convallibus alpium iberi-carum»).

***Lectotypus:*** (Харадзе, 1961: 412, 1963: 199, «тип», 1969, in herb. LE): "Ex Caucaso Cabardinico et Iberico [Bieberstein]" (LE!).

Coğrafi tipi: Qafqaz

*C. arvense* (L.) Scop., 1772, Fl. Carniol. ed. 2,2:126; Харадзе, 1961, Фл. Азерб., 8:390; həmin müəl. 1963, Фл. СССР, 28:213; Меницкий, 2008, Консп. Фл. Кавк. 3 (1):275 .– *Serratula arvensis* L. 1753, Sp. Pl.: 820. – Çöl qanqalı

Çoxillik, 60-150 sm hündürlüyündə, ikievli bitkidir. Gövdə yuxarı hissədən budaqlanan, zəif tükcüklü və ya çılpaqdır. Yarpaqları xətvari lansetşəkilli və ya uzunsov, 15 sm uzunluğunda, ləłəkvari bölümlü və ya ləłəkvari kürəkşəkilli, hər iki tərəfdən çılpaq və ya nazik hörümçəktorunabənzər tükcüklü, kənarları nazik tikanlıdır. Səbət çoxsaylı, 12 mm enində, qalxanvari süpürgə çiçək qrupunda toplaşmışdır. Sarğı yarpaqcıqları kiçik, xaricdəkilər

xətvari lansetşəkilli, sivri uclu, daxildəkilər xətvari lansetşəkilli, çılpaq, kənarları tükcüklüdür. Çiçəkləri qırmızıdır. Toxumca 3 mm uzunluğunda; kəkil çiçəkdən uzundur. KQ mərk., KQ cən. hissəsində düzənlikdən subalp qurşağına kimi meşədən sonrakı çəmənlərdə, yol kənarlarında, ruderal sahələrdə, alaq bitkisi kimi əkinlərdə yayılır. Dərman və yem bitkisidir, balverəndir. Ç. V-VIII, M.VI-X Mezofit, işıqsevəndir.

İsveçrədən təsvir edilmişdir. ***Typus***: ("in Europae cultis agris")

**Coğrafi tipi:** Avropa-Aralıq dənizi

*C. arvense* var. *vestitum* Wimm. & Grab. 1829, in Fl. Siles. 2(2): 92. – Cirsium incanum (S.G.Gmel.) Fisch. ex M.Bieb. 1819, in Fl. Taur.-Caucas. 3:561; Харадзе, 1961, Фл. Азерб., 8:413; Меницкий, 2008, Консп. Фл. Кавк., 3 (1): 276.

Gövdə yarpaqları lələkvari qanadlı, alt tərəfdən ağ keçətüklü; steril zoğların yarpaqları tamamilə bütövkənarlıdır. Qalan əlamətlər Cirsium arvense növünə çox oxşardır. KQ mərk., KQ cən. hissəsində düzənlikdən subalp qurşağına kimi meşədən sonrakı və subalp çəmənlərdə, yol kənarlarında, ruderal sahələrdə, alaq bitkisi kimi əkinlərdə yayılır. Dərman bitkisidir, balverəndir. Mezofit, işıqsevəndir.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, cinsin 9 növ, 1 yarımnövü regionda yayılmışdır.

ƏDƏBİYYAT


Askerov A.M. (2016) The flora of Azerbaijan. Baku: TEAS PRES, 444 p. [Əsgərov A.M. (2016) Azərbaycanın bitki aləmi. Bakı: TEAS PRES, 444 s.]

Bobrov E.G., Cherepanov S.K. (1963) Compositae (tribes Cynareae – Mutisinae). Flora of the USSR in 30 volumes. Vol. 28, 654 p. [Бобров Е.Г., Черепанов С.К. Compositae (колена Cynareae – Mutisinae). Флора СССР в 30 т. Т. 28, 654 с.]

Charadze A.L. (1961) Cirsium Mill. The Flora of Azerbaijan. Baku: Publ. AS USSR, Vol. 8, 636 p. [Харадзе А.Л. (1961) Флора Азербайджана. Флора Азербайджана. Баку: Изд. Академии Наук Азербайджанской ССР, т. 8, 636 с.]

Esri GIS Arc review: https://arcreview.esri-cis.ru/2021/08/24/new-books-for-arcgis-pro/

Grossheim A.A. (1949) Key to plants of the Caucasus. M.: State. Ed. Sov. Science, 748 pp. [Гроссгейм А.А. (1949) Определитель растений Кавказа. М.: Гос. Изд. Сов. Наука, 748 с.]

Jeffrey C. (2007) Compositae: Introduction with key to tribes. In: J.W.Kabereit and C.Jeffrey, editors. Families and genera of vascular plants. Vol. 8, Flowering Plants, Endicots, Asterales, Berlin: Springer-Verlaq, p.61-87

Kew Royal Botanic Gardens (2024) https://powo.science.kew.org/

Menitsky Yu.L. (2008) Abstract of the flora of the Caucasus. St. Petersburg; M.: Partnership of scientific publications KMK, T.3, part 1, 469 pp. [Меницский Ю.Л. (2008) Конспект флоры Кавказа. СПб.; М.: Товарищество научных изданий КМК, Т.3, ч. 1, 469 с.]

Mitchell A. (2020) The Esri Guide to GIS Analysis. Vol. 1: Geographic Patterns and Relationships, second edition.

NextGIS https://data.nextgis.com/en/catalog/subdivisions/?country=AZ

Rechinger K.H. (1980) Flora Iranica. Austria, Vol. 3, p. 313-420

Salimov R.A., Karimov V.N., Garakhani P.Kh., Aliyeva Z.S. (2020) Vascular plants of Azerbaijan (a nomenclatural checklist of monocotyledons), Baku, 175 p.

Wagenitz G. (1975). Compositae. Flora Turkey. Vol. 5, p. 465-585

WFO https://www.worldfloraonline.org/

https://powo.science.kew.org/

https://www.gbif.org/

## Виды рода *Cirsium*, распространенные в Карабахе

**У.С.Алышанлы, А.Ю.Гусейнова, П.Х.Гарахани**
Институт Ботаники, Министерство Науки и Образования, Азербайджанской Республики, Ул. А. Аббасзаде, подъезд 99, AZ 1004, Баку, Азербайджан

В статье исследованы виды рода *Cirsium*, распространенные в Карабахе, уточнены их ареалы, отмечены номенклатурные изменения, составлена ГИС-карта вида. Род *Cirsium* выведен нами для нового издания флоры Карабаха. На основе литературных материалов, гербарных и мониторинговых данных, собранных в ходе организованных в последние годы экспедиций, установлено распространение в Карабахе 9 видов и 1 подвида этого рода: *C.vulgare, C.kosmelii, C.echinus, C. canum, C. elodes, C. subinerme, C. rhizocephalum, C.obvallatum, C. arvense, C. arvense* var. *vestitum*. В статье приведены сведения об описании рода и вида, номенклатурных типах, базионимах, синонимах, распространении в Карабахе и географическом типе.

**Ключевые слова:** Карабах, *Cirsium*, *Asteraceae*, род, таксономия

## The species of the genus *Cirsium* distributed in Karabakh

**U.S.Alishanli, A.Y.Huseynova, P.Kh.Garakhani**
Institute of Botany, Ministry of Science and Education of the Republic of Azerbaijan, A. Abbaszade str., entrance 99, AZ1004, Baku, Azerbaijan

In the article, the species of the genus *Cirsium* distributed in Karabakh were investigated, their areas were specified, nomenclature changes were noted, and a GIS map of the species was drawn up. The genus *Cirsium* was developed by us for the new edition of Karabakh flora. Based on literature materials and herbarium and monitoring data collected during expeditions organized in recent years, the distribution of nine species and one subspecies of this genus in Karabakh was determined: *C.vulgare, C.kosmelii, C.echinus, C. canum, C. elodes, C. subinerme, C. rhizocephalum, C.obvallatum, C. arvense, C. arvense* var. *vestitum* The article provides information on the description of the genus and species, nomenclature types, basionyms, synonyms, distribution in Karabakh and geographical type.

**Keywords:** Karabakh, *Cirsium*, *Asteraceae*, genus, taxonomy